**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# CEYN OSTİNİN ROMANLARINDA PSİXOLOGİZM

İxtisas: 5718.01 – Dünya ədəbiyyatı (ingilisdilli ədəbiyyat)

Elm sahəsi: Filologiya

İddiaçı: **Cahanxanım Miramin qızı Yaqubova**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2025**

Dissertasiya işi Bakı Dövlət Universitetinin Dünya ədəbiyyatı kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: filologiya elmləri doktoru, professor
**Cəlil Qərib oğlu Nağıyev**

Rəsmi opponentlər: filologiya elmləri doktoru, professor
**Əsgər Məmməd oğlu Zeynalov**

filologiya üzrə fəlsəfə doktoru, dosent
**Leyli Əliheydər qızı Əliyeva**

filologiya üzrə fəlsəfə doktoru, dosent
**Səadət Xalid qızı Abdurəhmanova**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Dillər Universiteti nəzdində fəaliyyət göstərən ED 2.12 Dissertasiya şurası

Dissertasiya şurasının sədri: ______________ filologiya elmləri doktoru, professor
**Azad Yəhya oğlu Məmmədov**

Dissertasiya şurasının elmi katibi: ______________ filologiya üzrə fəlsəfə doktoru, dosent
**İradə Nadir qızı Sərdarova**

Elmi seminarın sədri: ______________ filologiya elmləri doktoru, professor
**Şahin Həmid oğlu Xəlilli**

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Ədəbiyyat və psixologizm hər zaman bir-biri ilə vəhdətdə olmuş və bu, bədii əsərlərdə öz əksini tapmışdır. Bədii əsərlərə nəzər salsaq orada mütləq psixoloji təsirləri görə bilərik. İngilis ədəbiyyatında psixologizm xüsusilə XVIII əsrin sonu XIX əsrin əvvəllərində bir sıra yazıçılarla yanaşı Ceyn Ostinin də romanlarında rast gəlinən bir istiqamətdir.

Ceyn Ostinin "Qürur və qərəz", "Hiss və hissiyyat", "Mansfild parkı", "Emma", "Nortenger abbatlığı" romanlarında psixologizm xüsusi olaraq öz əksini tapmışdır.

Ceyn Ostin ingilis ədəbiyyatı tarixinin görkəmli yazıçılarından biridir. Onun əsərləri öz populyarlığını əsrlərdir qoruyub saxlamağı bacarmışdır. Ceyn XVIII əsrdən XIX əsrə keçid dövründə – tarixi və sosial-iqtisadi, inqilabi hadisələrin baş verdiyi mürəkkəb bir zamanda yaşasa da, əsərlərində bu məsələləri işıqlandırmamış, daha çox əyalət həyatının gündəlik yaşamından, məişət və adətlərindən, xüsusilə Regentlik dövrünün spesifik xüsusiyyətlərindən bəhs etməyi üstün tutmuşdur.

O, öz romanlarında müxtəlif üsul və metodlar vasitəsilə obrazların və qəhrəmanların daxili aləmini dərindən təhlil edərək, demək olar ki, ilk dəfə hadisələrin sadəcə səthi qavrayışına deyil, həm də dərin psixoloji qatlara malik olduğunu oxucularına çatdırmışdır.

Bu baxımdan Ceyn Ostinin həyat və yaradıcılığı həm dilçilik, həm ədəbiyyatşünaslıq, həm də psixologiya sahəsində hər zaman maraq doğurmuş, bir çox tədqiqat işinin obyekti olmuşdur. Yazıçının yaradıcılığını ilk dəfə Valter Skott ətraflı şəkildə tədqiq etmişdir. Sonradan onun əsərləri istər dilçilik, istərsə də ədəbiyyatşünaslıq aspektindən müxtəlif monoqrafiya, məqalə və elmi tədqiqat işlərinə cəlb olunmuşdur. Yazıçının əsərləri haqqında E.Auerbax[1], R.Oldinqton[2], K.Tomalin[3], R.Şapman[4], C.Todd[5], L.Braun[6],

---

[1] Auerbach, E. Searching for Jane Austen. / E.Auerbach. – University of Wisconsin Press, – 2006. – 344 p.
[2] Richard, O. Jane Austen. / O.Richard. – The Ampersand Press, – 1948. – 16 p.

V.V.Nabokov[7], Y.Timoşenko[8], V.Vulf[9], M.Urqan[10], A.Məmmədova[11], S.Əziz[12] və bir çox başqa alimlər tədqiqat işləri yazmışlar.

Psixologizm probleminin son dövrlərdə tədqiqi ədəbiyyatşünaslıqda xüsusi maraq doğurur. Bu tədqiqatların aktuallığı ədəbiyyat və psixologiya arasındakı əlaqələrin daha da dərinləşdirilməsi, aydınlaşdırılması baxımından əhəmiyyətlidir. C.Ostin yaradıcılığı Azərbaycan ədəbiyyatşünaslığı və dilçiliyində ətraflı tədqiq olunmamışdır. Yazıçının romanları dünyanın əksər dillərinə tərcümə olunsa da, Azərbaycan dilində onun əsərlərinin tərcüməsinə son illərdə maraq artmışdır. Belə ki, Azərbaycan dilinə onun “Qürur və qərəz”, “Hiss və hissiyyat” və “Təhrik” adlı romanları tərcümə edilmişdir. Yazıçının həyat və yaradıcılığı barədə məqalələr də azlıq təşkil edir. Ceyn Ostinin yaradıcılığına həsr olunmuş Aynur Məmmədovanın “Ceyn Ostin romanlarının dil və üslub xüsusiyyətləri” və Sevinc Əzizin “Ceyn Ostin romanlarının poetikası” adlı dissertasiya işləri mövcuddur.

Ədəbiyyatda Ostin romanları psixologizmin spesifikası aspektindən ilk dəfə elmi-nəzəri tədqiqata cəlb ediləcəkdir. Bu

---

[3] Tomalin, C. Jane Austen: A Life. / C.Tomalin. New York: Alfred A. Knopf, – 1997. – 256 p.

[4] Chapman, R.W. Jane Austen.Facts and problems. / R.W.Chapman. – Oxford University Press, – 1949. – 224 p.

[5] Todd, J. The Cambridge Introduction to Jane Austen. / J.Todd. – Cambridge University Press, – 2015. – 190 p.

[6] Brown, L. What would Jane Austen Do? / L.Brown. – Sourcebooks Press, – 2009. – 352 p.

[7] Владимир Набоков о Джейн Остен: [Электронный ресурс]. URL: http://apropospage.ru/-osten/ost14.html

[8] Тимошенко, Ю. Литературный диалог Джейн Остен с Сэмюэлем Ричардсоном: /автореферат дис. канд. филол. наук./ – Самара, 2013. – 19 с.

[9] Woolf,V.: [Electronic resource]. URL: https://newrepublic.com/article/115922/virginia-woolf-jane-austen

[10] Urgan, M. İngiliz edebiyatı tarihi. / M.Urgan. – Yapı Kredi yayınları, – 2003. 1844 s.

[11] Məmmədova, A. Ceyn Ostin romanlarının dil və üslub xüsusiyyətləri: /filologiya üzrə fəlsəfə doktoru dis. avtoreferatı / – Naxçıvan. 2021. – 28 s.

[12] Əziz,S. Ceyn Ostin romanlarının poetikası: /filologiya üzrə fəlsəfə doktoru dis. avtoreferatı/ – Bakı, 2024. – 32 s.

baxımdan tədqiqat işinin mövzusu ölkə ədəbiyyatşünaslığı üçün mühüm aktuallıq kəsb edir.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyektini Ceyn Ostinin qotik və realist səpkidə yazdığı romanları təşkil edir.

Tədqiqatın predmeti isə Ceyn Ostinin romanlarındakı psixologizm probleminin təhlilindən, onun əsərlərində müəllif və qəhrəmanların daxili aləmlərinin psixoloji təsvirindən, obrazların dialoji və monoloji nitq vasitəsilə əsas səciyyəvi cəhətlərini araşdırmaqdan, psixologizmin işlənilməsinin janr özünəməxsusluqlarının aydınlaşdırmaqdan ibarətdir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqat işinin əsas məqsədi Ceyn Ostin romanlarındakı psixologizm probleminin öyrənilməsidir. Eləcə də Ceyn Ostinin yaradıcılığı əsasında psixologizmin əsas və aparıcı xüsusiyyətlərini, özünəməxsus cəhətlərini aşkarlamaq və üzə çıxarmaqdır. Bunun üçün dissertasiya işində aşağıdakı vəzifələrin yerinə yetirilməsi nəzərdə tutulub:

– Psixologizm probleminin tarixini, yaranma şəraitini və əsas nəzəri-estetik prinsiplərini araşdırmaq;

– Ceyn Ostin yaradıcılığında psixologizm problemini aydınlaşdırmaq;

– İngilis ədəbiyyatında qotik janr və onun əsas nümunələrini ədəbiyyatşünaslığın tədqiqat obyekti kimi araşdırmaq;

– Ceyn Ostinin “Nortenger abbatlığı” əsərində qotik psixologizmin xarakterik cəhətlərini aydınlaşdırmaq;

– “Qürur və qərəz” romanında psixologizmin əsas xüsusiyyətlərini öyrənmək;

– “Hiss və hissiyyat” romanında qəhrəmanların psixoloji təsvirini müəyyənləşdirmək.

**Tədqiqat metodları.** Dissertasiyanın əsas məqsədi və onun həlli üçün qarşıya qoyulmuş məsələlər tədqiqatın kompleks metodiki bazada aparılmasını şərtləndirmişdir. Dissertasiyada elmi-nəzəri və ədəbi-bədii materiallar əsasında təsviri, struktur-tipoloji, tarixi-müqayisəli araşdırma metodlarından istifadə olunmuşdur.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

1. XVIII əsrin sonu meydana gələn və insan zehninin bütün məhsullarının psixologiyanın qanunlarına görə ortaya çıxdığını iddia

edən psixologizm sonrakı dövrlərdə transformasiyalara məruz qalaraq yeni bədii keyfiyyətlər qazanır və XX əsrdə xüsusilə aktuallaşır;

2. Ceyn Ostin roman janrının özünəqədərki qəlibləşmiş qaydalarını özünəməxsus ironiya və satirası ilə yıxaraq, yerinə yeni anlayışlar gətirmişdir.

3. Görkəmli ingilis yazıçısı Ceyn Ostin əsərlərini daha çox realist səpkidə yazaraq, ingilis ədəbiyyatına özünəməxsus yeni bədii çalarlar qazandırmışdır.

4. Ceyn Ostin dövrünün geniş yayılmış qotik romanlara parodiya, burlesk yaratmış, qotika janrından vasitə kimi istifadə edərək "Nortenger abbatlığı" əsərində qotik anti-qəhrəmanın realist qəhrəmana çevrilməsi dinamikasını ustalıqla təsvir etmişdir.

5. Yazıçı realist səpkidə yazdığı romanlarda qəhrəmanların psixoloji təsvirinə geniş yer verilmişdir.

6. XIX əsr İngiltərəsinin əyalət həyatına həsr olunan əsərlərdə psixologizmin müxtəlif üsul və vasitələrindən istifadə olunmuşdur.

**Tədqiqatın elmi yeniliyi.** Azərbaycan ədəbiyyatşünaslığında Ceyn Ostinin yaradıcılığı tədqiq olunmuş və araşdırmalar müəllifin ayrı-ayrı romanlarına əsasən aparılıb. Tədqiqatın əsas elmi yeniliyi ondan ibarətdir ki, Ceyn Ostinin romanları psixologizmin spesifik cəhətləri, Ostin əsərlərində qoyulan problemlər və onlar arasında ardıcıl əlaqələr ilk dəfə araşdırılmışdır.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Azərbaycan ədəbiyyatşünaslığında C.Ostinin romanları ilk dəfədir ki, psixologizm aspektindən tədqiqata cəlb olunur. Azərbaycan ədəbiyyatşünaslığında yetərincə dolğun araşdırılmamış yazıçının yaradıcılığına dissertasiya formasında müraciət və onun yaradıcılığının psixoloji aspektlərinin ön plana alınması tədqiqatın nəzəri əhəmiyyətini əsaslandırır. C.Ostin yaradıcılığında psixologizmin ifadə formasının sistemli təhlili, istər müəllifin bədii irsinin öyrənilməsi baxımından, istərsə də müasir dünya ədəbiyyatında psixologizmin təkamül özəllikləri və istiqamətlərini tədqiq etmək baxımından mühüm nəzəri əhəmiyyətə malikdir. Dissertasiyada müəllifin romanları psixoloji aspektdə öyrənilmiş, C.Ostinin yaradıcılığı üçün səciyyəvi olan əsas xüsusiyyətlər aşkara çıxarılmışdır.

Dissertasiyanın praktiki əhəmiyyəti isə ondan ibarətdir ki, tədqiqatın nəticələri ədəbiyyatda "psixologizm" ədəbi termininin və anlayışının dəqiqləşdirilməsinə; XVIII-XIX əsr ədəbiyyatında, eləcə də C.Ostinin bədii yaradıcılığında psixologizmin mövcudluğu haqqında gələcək araşdırmalara yol açacaqdır. Dissertasiyanın praktik əhəmiyyəti ondan ibarət olacaqdır ki, onun materialları və nəticələrindən ali məktəblərin filologiya fakültələrində həm tələbələr, həm də gənc tədqiqatçılar üçün yardımçı material və tədris vəsaiti kimi istifadə edilə bilər.

**Aprobasiyası və tətbiqi.** Tədqiqat işini əks etdirən əsas müddəaların qələmə alındığı tezis və məqalələr ölkəmizdə və xaricdə keçirilmiş elmi konfransların, simpoziumların, habelə Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi yerli və xarici elmi jurnalların materiallarına daxil edilərək nəşr edilmişdir.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı**. Dissertasiya işi Bakı Dövlət Universitetinin Dünya ədəbiyyatı kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya işi giriş, üç fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. Dissertasiyanın Giriş hissəsi – 6 səhifə, 10017 işarə, I fəsil – 36 səhifə, 66455 işarə, II fəsil – 33 səhifə, 63872 işarə, III fəsil – 38 səhifə, 72263 işarə, Nəticə hissəsi – 5 səhifə, 8489 işarədən ibarətdir. Dissertasiyanın ümumi həcmi istifadə edilmiş ədəbiyyat siyahısı istisna olmaqla, 221096 işarədir.

## İŞİN ƏSAS MƏZMUNU

Dissertasiyanın **"Giriş"** hissəsində mövzunun aktuallığı, tədqiqatın obyekti və predmeti, məqsəd və vəzifələri, mövzunun işlənmə səviyyəsi, tədqiqatın elmi yeniliyi, metodologiyası, nəzəri və təcrübi əhəmiyyəti əsaslandırılır, müdafiəyə çıxarılan müddəalar, tədqiqatın aprobasiyası və quruluşu haqqında məlumat təqdim edilir.

Dissertasiya işinin **"Ədəbiyyatda psixologizm və onun inkişaf tarixi"** adlanan **I fəsli** iki paraqrafdan ibarətdir. ***"Psixologizm və onun nəzəri-estetik prinsipləri"*** adlanan birinci

paraqraf ədəbiyyatda psixologizm probleminin keçdiyi inkişaf yolunun təhlilinə həsr olunmuşdur. “Psixologizm” terminin ilk dəfə kim tərəfindən işlədilməsi barədə müxtəlif fikirlər vardır. Əksər tədqiqatçıların fikrinə görə bu termin ilk dəfə Hegelin əleyhdarları tərəfindən XVIII əsrin sonu XIX əsrin əvvəlləri istifadə olunmuşdur. Adrian Kassins isə bu terminin Yohan Eduard Erdman tərəfindən 1870-ci ildə Eduard Benekenin fəlsəfi görüşlərini xarakterizə etmək üçün işlədildiyini iddia edir[13].

Psixologizm problemi daim nəzəriyyəçi və tədqiqatçıların diqqət mərkəzində olmuşdur. Bu müəlliflər arasında L.Qinzburq, L.S.Vıqotski, N.A Qulyayev, A.İezuitov, A.Pavlovski, Y.Andreyev, M.Şatalin, A.Smorodin, F.Fellini, M.İmanov, C.Nağıyev, T.Hüseynoğlu, T.Əlişanoğlu və başqalarının adlarını çəkmək olar.

Psixologizmin inkişafına təkan verən müəlliflərə nümunə olaraq Ceyms Coys, Marsel Prust, Uilyam Folkner, Frans Kafka və başqalarının adlarını çəkmək olar. Azərbaycan ədəbiyyatında isə Cəlil Məmmədquluzadə, Əbdürrəhim bəy Haqverdiyev, Yusif Vəzir Çəmənzəminli, Ənvər Məmmədxanlı, Süleyman Sani Axundov, Cəfər Cabbarlı insanın daxili dünyasını, psixologiyasını açmaqda xüsusi ustalıq göstəriblər[14].

Psixologizmin öyrənilmə tarixi yeni olsa da, kökləri əslində qədim zamanlara, hətta mifologiyaya qədər gedib çıxır. Çünki insan və ədəbiyyat hər zaman vəhdətdə olmuşdur. Yəni, ədəbiyyatın əsas obyekti insan və onun psixologiyasıdır. Buna görə də ən qədim mətnlərdə belə biz psixologizm nümunələrinə rast gələ bilərik.

Psixologizm bədii əsərlərdə obrazların daxili aləminin, onların hiss və həyəcanlarının, daxili monoloqlar vasitəsilə ifadə olunan düşüncələrinin təsviridir.

Cəlil Nağıyev “Dədə Qorqud, Koroğlu və...” kitabında psixologizmə bu cür aydınlıq gətirir: “*Ədəbiyyatda psixologizm anlayışı, bizim fikrimizcə, daha çox insan psixologiyasında baş verən qeyri-adi, normadan kənar psixoloji vəziyyətlərin təsviri ilə*

---

[13] Yaqubova, C.M. Ədəbiyyatda psixologizm problemi və onun inkişaf tarixi // – Bakı: Bakı Dövlət Universiteti, Dil və Ədəbiyyat, – 2018. № 3(108), – s.387
[14] Yenə orada, s.387

*əlaqəlidir. Daha dəqiq ifadə etsək, psixologizm ezoterik, metafizik, təhtəlşüuri (şüuraltı) hadisələrin məcmuu olmalıdır"*[15].

Alman filosofu Qotlob Freyenin fikrincə isə, psixologizm fəlsəfə və psixologiya sahələri arasındakı sərhədlərin itməsi, fəlsəfi və psixoloji yanaşmaların bir-birinə qarışması nəticəsində meydana çıxmışdır[16].

Hər bir bədii əsərdə yazıçı personajların daxili aləminə enmək, oxucuda daha geniş təəssürat yaratmaq məqsədilə müxtəlif psixoloji təsvirlərdən istifadə edir. Məsələn, "o qorxdu" kimi. Lakin bu nümunəni psixoloji analizin ən sadə, bəsit forması adlandıra bilərik. Obrazın daxili aləmini daha dərindən analiz etmək, onun hiss və həyəcanlarını daha dəqiq ifadə etmək üçün müəllif daha mürəkkəb və effektiv üsullara əl atmalıdır.

Psixoloji analiz və ya başqa sözlə desək, psixologizm məhz, bu məqsədlə yaranıb, inkişaf etmişdir.

Bu baxımdan ədəbiyyatda psixologizmin inkişafında Ziqmund Freyd və Karl Yunqun şüuraltı araşdırmalarının rolu əvəzsizdir. *"XIX əsrin ortalarından bu günlərə qədər S.Kyerkoqor, F.Niçşe, Z.Freyd, K.Levi-Stros, A.(axtarışda H.) Berqson, K.Q.Yunq, E.From kimi Qərbi Avropanın görkəmli mütəfəkkir və filosoflarının əsaslı araşdırmalarından sonra psixologiya elminin təhtəlşüuri istiqamətinin tədqiqat sərhədləri, araşdırma sahələrinin miqyası genişlənmiş, onun nəzəri paradiqmaları dəyişmiş və bu elm sahəsinin yeni istiqamətləri meydana gəlmişdir"*[17].

Psixologizm ilkin vaxtlarda özünü daha çox nəsr əsərlərində büruzə verirdi. Çünki, bu tip mətnlərdə qəhrəmanın daxili aləmini geniş təsvir etmək, onun psixoloji dünyasına enmək üçün imkanlar boldur. Təhkiyə, uzun-uzun təsvirlər, bənzətmə, müqayisə və paralellərin rahatlıqla tətbiq olunduğu geniş cümlələr hər bir müəllifə özünüifadə üçün geniş imkanlar verir. Lakin insan psixologiyasının təsvirini psixologizm adlandırmaq olmaz, bu adi psixoloji təsvirdir.

---

[15] Nağıyev, C. Dədə Qorqud, Koroğlu və... / C.Nağıyev. – Bakı: Elm və Təhsil, – 2020. – s.8-9

[16] Psychologism: [Electronic resource]. URL: https://en.wikipedia.org/wiki/Psychologism

[17] Nağıyev, C. Dədə Qorqud, Koroğlu və... / C.Nağıyev. – Bakı: Elm və Təhsil, – 2020. – s.3-4

Nəzərə almaq lazımdır ki, psixologizm anlayışında adi psixoloji təsvirdən kənara çıxma hadisəsi var.

Lirikada isə psixologizm ifadəlidir. Bu növdə, bir qayda olaraq, insanın mənəvi həyatına "kənardan baxmaq" mümkün deyil. Bu cür məhdudiyyətlər qismən dramaturgiyadakı psixologizmə də aiddir. Çünki daxili aləmi canlandırmağın əsas yolu monoloqlardır. Personajlar, bir çox cəhətdən lirik qəhrəmanlara bənzəyir[18].

İnsanın daxili dünyasını təsvir etmək üçün ən böyük imkanlara malik, psixoloji forma və üsulların mükəmməl şəkildə istifadə olunduğu növ, şübhəsiz ki, epik növ və onun ən geniş yayılmış janrlarından biri olan romandır.

Psixoloji təhlilin qəhrəmanların daxili aləmini, hiss və həyəcanlarını ifadə etmək üçün müxtəlif formaları vardır. Lakin onlardan əsas ikisini fərqləndirmək olar ki, psixoloq İ.V.Straxov da bu bölgünü təsdiqləyir:

*"Daxili aləmin zahiri əlamətlər vasitəsilə ifadəsi, yəni dolayı psixologizm"*[19]

*"İkinci forma isə hiss və düşüncələrin bilavasitə ifadəsi ilə baş tutan birbaşa psixologizmdir"*[20].

Bədii ədəbiyyatda qəhrəman öz psixoloji durumunu və narahatlıqlarını şifahi və ya yazılı nitqlə ifadə edə bilər. Yazılı formaya obrazın kiməsə məktub yazmasını və ya gündəlik yaşantılarını günlük tutaraq qələmə almasını misal göstərmək olar. Təsadüfi deyil ki, psixologizmin ortaya çıxdığı illər epistolyar janrın geniş yayıldığı sentimentalizm dövrlərinə aiddir.

İnsan psixologiyasına maraq təqribən iki əsrlik tarixə malikdir və bu zaman ərzində təşəkkül taparaq xeyli irəliləyib, insan psixologiyasının yeni-yeni qatlarının bədii söz sənətinə gətirib. Bədii əsərlərdə insan və onun daxili aləmi, psixologiyası başlıca yer tutmalıdır, insan xoşbəxtliyi mövzu kimi aydın və emosional rəng

---

[18] İmanov M. Müasir Azərbaycan nəsrində psixologizm / M.İmanov. – Bakı, – 2021. – s.117

[19] Yaqubova, C.M. Psixoloji roman janrının yaranması və inkişafı // – Bakı: Bakı Dövlət Universiteti, Dil və Ədəbiyyat, Beynəlxalq elmi-nəzəri jurnal, – 2019. №3(112), – s.312

[20] İmanov, M. Müasir Azərbaycan nəsrində psixologizm / M.İmanov. – Bakı, – 2021. – s.5

almalı, təsiredici gücə malik olmalıdır. Bu da məhz, psixologizmin sayəsində mümkündür.

I fəslin ikinci paraqrafı ***“Ceyn Ostin romanlarında Regentlik dövrü qadınlarının psixoloji təsviri”*** adlanır. Bu hissədə ilk olaraq Ceyn Ostinin həyat və yaradıcılığı barədə ümumi məlumat verilir, daha sonra isə yazıçının da yaşadığı Regentlik dövründə qadınların mövcud vəziyyəti dərindən araşdırılır.

İngilis ədəbiyyatının ilk böyük qadın yazıçısı Ceyn Ostin 1775-ci ildə İngiltərənin Hampşir şəhərində anadan olmuşdur. Regentlik dövründə yaşayan hər qadın kimi Ceyn də təhsilini evdə atası tərəfindən almışdı. Həyatı boyunca ailə qurmayan yazıçı 1817-ci ildə naməlum bir xəstəlik səbəbindən Vinçester şəhərində vəfat etmişdir[21].

Ceyn Ostin çox transformativ bir dövrdə yaşayırdı, çünki həyatı ənənəvi cəmiyyətin yenilikçi cəmiyyətə çevrildiyi dövrlə üst-üstə düşürdü. Lakin Ceyn, Avropada maarifçilik ideyalarının, azadlıq, fərdiyyətçilik, sosial hüquq istəklərinin əks-səda doğurduğu, inqilab və müharibələrin tüğyan etdiyi bir zamanda bütün bu hadisələrə biganə qalmış, əsərlərində bu məsələlərə yer ayırmamışdır.

Ceyn Ostini maraqlandıran, əsərlərində də geniş təsvirini verdiyi əyalət cəmiyyətinin, mülkədarların gündəlik yaşamı və adət-ənənələri idi.

Ceyn Ostin həyatı boyu altı roman qələmə almışdı: “Qürur və qərəz”, “Hiss və hissiyyat”, “Təhrik”, “Nortenger abbatlığı”, “Mensfild parkı” və “Emma”. “Hiss və hissiyyat”, “Qürur və qərəz” 1811-1813-cü illərdə, “Mansfild park”ı 1814-cü ildə, “Emma” isə 1816-cı ildə nəşr olunmuşdur. “Təhrik” adlı romanı isə ölümündən bir il sonra – 1818-ci ildə “Nortenger abbatlığı” ilə birlikdə işıq üzü gördü. Ceyn Ostin yaşadığı dövrdə qadınların əsər yazması yaxşı qarşılanmadığı üçün romanlarını öz adı ilə yox, “bir xanım tərəfindən” (“*by a lady*”) imzası ilə çap etdirib.

Yuxarıda adıçəkilən əsərlərin demək olar ki, hər birinin əsas qəhrəmanları qadınlardır. Ceyn Regentlik və onun ardınca gələn

---

[21] Urgan, M. İngiliz edebiyatı tarihi. / M.Urgan. – Yapı Kredi Yayınları, – 2003. – s.881

Viktoriya dövründə qadınların kişilər tərəfindən basqı altında saxlanmalarına qarşı çıxır, bunu öz əsərlərində özünəməxsus ironiya ilə tənqid edirdi:

"*Qadınlarda axmaqlıq onların şəxsi cəlbediciliyini xeyli artırır. Bəzi kişilər o qədər ağıllı və biliklidirlər ki, qadınlardan cahillikdən başqa bir şey istəmirlər"*[22].

XVIII və XIX əsrlərdə subay qadınlar cəmiyyətdə yaxşı bir mövqeyə və maddi imkanlara sahib olmaq, həyatlarını rahat şəkildə davam etdirmək üçün evlənməyə məcbur idilər. Cəmiyyətdə ailə qurmayan qadınlar birmənalı qarşılanmırdı və çox zaman evlənməyə məcbur edilirdilər.

Ostin qadınların məcburi evləndirilmələrini onların maddi vəziyyətləri ilə əlaqələndirirdi. Buna görə də, demək olar ki, bütün romanlarında pul məsələləri əhəmiyyət kəsb edir. Belə ki, Ostin qəhrəmanların ümumi təsvirini verdikdən sonra, onların maddi durumları haqqında məlumat verir. "Qürur və qərəz" əsərində cənab Binqli və Darsi bu cür təsvir edilir:

"*Subay və varlı adam. İldə dörd-beş min sterlinq gəliri var*"[23].

Qadınların fəaliyyətini məhdudlaşdıran qadağalar təkcə ailə tərəfindən qoyulmurdu. Sözügedən dövrlərdə dövlət də bu prosesi dəstəkləyirdi. Kişilər kimi təhsil almaq istəyən və ya işləməyə çalışan qadınların qarşısına cürbəcür maneələr çıxırdı, onlara daha az əmək haqqı ödənilirdi.

Təsadüfi deyil ki, qadınların təhsil alması üçün ilk kollec Londonda 1848-ci ildə açılmışdı. O vaxta qədər qadınlar ev təhsili ilə kifayətlənməli idilər[24].

Həqiqətlərdən uzaqlaşmayaraq onları olduğu kimi qələmə alan realist müəllif 1814-cü ildə qardaşı oğluna ünvanladığı məktubda yazmaq istədiyi əsəri bu cür təsvir edirdi: "*Şəhərdən uzaq, balaca bir*

---

[22] Urgan, M. İngiliz edebiyatı tarihi. / M.Urgan. – Yapı Kredi Yayınları, – 2003. – s.890

[23] Ostin, C. Qürur və qərəz. / C.Ostin. – Parlaq İmzalar Nəşriyyatı, – 2021. – s.8

[24] Çiçek, Ö. Jane Austen ve Adab-I muaşeret. / Ö.Çiçek, H.İ.Ertuna. – Doğan Kitap, – 2017. – s.114

*kənddə üç-dörd ailə... Bax, yazmaq istədiyim mövzu tam olaraq bundan ibarətdir"*[25].

*"Virciniya Vulfun həyat yoldaşı Leonard Vulf 1942-ci ildə nəşr etdirdiyi "The Economic Determinism of Jane Austen" adlı məqaləsində, bu yazıçının yaratdığı obrazları kapitalist burjuaziyanın tipik təmsilçiləri olaraq görür. Şotland tarixçi və ədəbiyyat tənqidçisi David Deyçs də Ceyn Ostini Marksdan əvvəl marksist olan yeganə böyük İngilis yazıçısı hesab edirdi*"[26].

C.Ostin romanlarında bir-biri ilə vəhdətdə olan iki əsas mövzu var: qadın və evlilik.

C.Ostin romanlarının qadın qəhrəmanlarını iki qrupa ayırmaq olar: Məntiqlə, ağlı ilə davrananlar və emosiya və duyğuları ilə hərəkət edənlər.

Məsələn, "Qürur və qərəz"də məntiq timsalı olan Elizabet və duyğusallığa önəm verən bacısı Lidiya kimi, yaxud "Hiss və hissiyyat" əsərindəki Elinor və Marianna kimi. Bir-birinə əks cəbhədə duran bu qadınlar bir qayda olaraq, məntiqlidirsə, yaxşı və varlı kişilərlə, emosionaldırsa, kasıb kişilərlə ailə qururlar.

Ceyn Ostin 1814-cü ildə qardaşı qızı Fanni Nayta yazdığı məktubda belə bir tövsiyə verirdi*: "Yoxsul adamla evlənməkdən qaç. Yoxsulluq qapıdan gəldiyi zaman sevgi pəncərədən qaçır"*[27].

C.Ostinin romanlarında ağıllı qadınlar varlı və məntiqli adamlara aşiq olurlar. "Qürur və qərəz"də Elizabet və Ceyn Bennet, "Hiss və hissiyyat"da Elinor Daşvudun Edvarda olan sevgisi, eləcə də "Emma" əsərinin qəhrəmanı Emmanın ən sonunda gerçəkləri görüb cənab Naytlinin sevgisinə qarşılıq verməsi buna nümunə ola bilər.

"Qürur və qərəz"də Elizabet, "Hiss və hissiyyat"da Elinor Daşvud, "Mansfild park"da Fanni Prays, "Təhrik"də Ann Eliot və "Emma" romanının baş qəhrəmanı Emma Vudhausun

[25] Urgan, M. İngiliz edebiyatı tarihi / M.Urgan. – Yapı Kredi Yayınları, – 2003. – s.891
[26] Yenə orada, s.891
[27] Çiçek, Ö. Jane Austen ve Adab-I muaşeret. / Ö.Çiçek, H.İ.Ertuna. – Doğan Kitap, – 2017. – s.34

məsləhətləşəcəkləri kimsə yoxdur, buna görə də ağılla davranaraq qərarlarını özləri vermək məcburiyyətindədirlər.

Onun maraqlı qadın obrazlarından biri də "Nortenger abbatlığı" romanının qəhrəmanı Ketrin Morlanddır. Ketrin bütün gününü qotik romanlar oxumaqla keçirir. O, Elizabet Bennet və Elinor Daşvud kimi rasional düşüncəli, məntiqli davranan biri olmasa da, romanın sonlarına doğru öz üzərində işləyərək müsbət qəhrəmana çevrilə bilir.

Beləliklə, deyə bilərik ki, Ceyn Ostin romanlarında istər gender bərabərliyi, istərsə də sinfi təbəqələşmə kimi məsələlərə toxunur, yaratdığı obrazlar vasitəsilə öz fikirlərini oxuculara çatdırırdı. O, demək olar ki, hər romanında qadınların cəmiyyətdəki yerini araşdırır və Regentlik dövründə onların qarşısına qoyulmuş sərhədləri təsvir etməyə çalışırdı.

Buna görə də Virciniya Vulf onun haqqında yazırdı: *"Ceyn Ostinin böyüklüyünü anlamaq çox çətindir"*[28].

Dissertasiya işinin **"İngilis qotik ədəbiyyatında psixologizm"** adlanan **II fəsli** də iki paraqrafdan ibarətdir. Birinci paraqraf ***"İngilis ədəbiyyatında qotik janr və əsas nümunələri"*** adlanır. Burada qotik üslubun mənşəyi, yaranma tarixi və inkişaf yoluna nəzər salındıqdan sonra ingilis ədəbiyyatında bu üslubun əsas nümayəndələri və onların əsərləri barədə məlumat verilir.

"Qotik" ifadəsinin kökü Skandinaviyanın Qotland ərazisində yaşayan Qot tayfalarının adı ilə bağlıdır.

Qotik üslubda yazılmış əsərlərin adında mütləq "qəsr, monastır, qala" və s. bunun kimi memarlıqla bağlı ifadələrə rast gəlirik. Məsələn, "Atlin qəsri", "Dunbayn qəsri", "Nortenger abbatlığı", "Otronto qəsri" və s. Bunun səbəbi qotik ədəbiyyatın məhz qotik memarlıqla vəhdətdə yaranmasıdır. Çünki bu cür əsərlərdə hadisələr qotik üslubda tikilmiş nəhəng, sirli, əzəmətli qalalarda, monastırlarda, qəsrlərdə cərəyan edir.

Qotik üslub ilk dəfə memarlıq sahəsində XII əsrin ikinci yarısında meydana çıxmış, öz varlığını və populyarlığını XVI əsrə qədər qoruyub saxlamışdır. Ədəbiyyatda isə bu üslub nisbətən

---

[28] Woolf,V.: [Electronic resource]. URL: https://newrepublic.com/article/115922/virginia-woolf-jane-austen

sonralar –XVIII əsrin sonu XIX əsrin əvvəllərində yaranan bu üslub, ingilis ədəbiyyatında daha da inkişaf etmişdir[29].

"Qotik" ifadəsini ilk dəfə termin kimi işlədən şəxs sənət tənqidçisi Corcio Vazari olmuşdur[30].

İngilis ədəbiyyatı tarixçisi Mina Urqan qotik üslubu ciddiyə almır: *"Qotik roman dövrü ilə əlaqəsi baxımından maraqlıdır. Lakin elə də əhəmiyyət kəsb etmir*"[31].

Nəhəng kilsələr və feodal qəsrləri, əzəmətli malikanələr və bu cür məkanlarda baş verən hadisələr qotik üslub üçün əsas xarakterik cəhətlər idi. Lakin bununla yanaşı qotik romanların digər xüsusiyyətləri də vardır. Ədəbiyyat nəzəriyyəçisi Ann Neyqeber yazır: "*Bu üslubda yazılmış romanların qotik roman adlandırılması üçün qotik məkanların olması kifayət etmir"*[32].

Sirli hadisələr, müəmmalı cinayətlər, qəbirdən xortlayıb çıxmış ölülər, fövqəltəbii qüvvələrin hadisələrə müdaxiləsi və s. kimi cəhətlər qotik üslubda yazılmış əsərlərin əsas göstəricisidir. Həmçinin, qotik əsərlərin qəhrəmanları da özünəməxsus keyfiyyətlərə malikdir. Belə ki, bu qəhrəmanlar cəmiyyətdən təcrid olunmuş, öz dünyasında yaşayan, melanxolik insanlardır.

Qotik üslubda yazılmış romanların ilkin nümunəsi Horas Uolpolun 1764-cü ildə qələmə aldığı "Otronto qəsri" hesab olunur.

Lakin türkiyəli ədəbiyyat nəzəriyyəçisi Murat Belge Samuel Consonun 1759-cu ildə yazdığı "Rasselas" adlı qısa romanını "qotika" adlandırılan ilk roman olduğunu iddia edir[33].

"Otranto qəsri" modernizm ruhunda yazılmışdır. Romanın adını aldığı Otronto qəsri isə, əslində Uolpolun öz malikanəsi idi.

---

[29] Civelekoğlu,F. Poetics Of Gothic: /Doktora Tezi/ – Ege Üniversitesi/Sosyal Bilimler Enstitüsü, 2008. – s.59.

[30] Скотт, В. Комната с гобеленами // Английская готическая проза, – М., – 1991. – с.160

[31] Urgan, M. İngiliz edebiyatı tarihi / M.Urgan. – Yapı Kredi Yayınları, – 2003. – s.871

[32] Neugebauer, A. URL: https://annieneugebauer.com/2013/11/18/what-is-gothic-fiction/

[33] Kopan,Y. Gothic romanın öncüsü Vathek: [Elektronik kaynak] / URL: https://gazeteoksijen.com/yazarlar/yekta-kopan/gotik-romanin-oncusu-vathek-54070

Əsər Otronto qəsrinin əsl sahibi Alfansonun öldürülməsindən sonra qəsrdə baş verən qəribə, müəmmalı hadisələrdən bəhs edir. Məsələn, gah Alfansonun portreti canlanaraq hərəkət edir, gah qəsrdəki heykəllərin burunlarından qan damlayır.

İngilis ədəbiyyatında Klara Riv, Anna Radklif, Metyu Levis, Çarlz Meturin, Uilyam Bekford kimi müəlliflər də qotik üslubda əsərlər yazmışlar.

Anna Radklif qotik üslubun ən məşhur nümayəndələrindən biri hesab olunur. Hətta onun həyatı ilə bağlı faktlardan biri də budur ki, müəllif qorxu və dəhşət səhnələrini o qədər dərindən hiss edərək yazırdı ki, sonunda ağlını itirərək psixoloji dispanserə düşür və həyatını orada başa vurur.

Anna Radklifin ən məşhur qotik əsəri "Udolfonun sirri" bu dissertasiya işinin də tədqiqat obyektidir. Çünki tədqiqat işinin ikinci fəslində təhlil olunan "Nortenger abbatlığı" romanı Anna Radklifin sözügedən romanının təsiri ilə parodiya kimi yazılmışdır.

Təbii ki, bütün qotik romanlarda olduğu kimi burada da iki gəncin arasında olan sevgi macərası qızın qəsrdə həbs edilməsi və burada baş verən qorxunc, dəhşətli hadisələrlə qarşılaşması nəticəsində qotik əhvalata çevrilir. Horas Uolpoldan fərqli olaraq Anna Radklif əsərin sonunda fövqəltəbii görünən varlıqların hər birinin əslində məntiqli bir açıqlaması olduğunun göstərir

Uilyam Bekfordun qələmə aldığı "Vatek, bir ərəb nağılı" adlı romanı ingilis ədəbiyyatında qotik üslubun ən maraqlı və diqqətçəkən nümunələrindən biri hesab olunur. Vatek qeyri-adi dərəcədə gözəlliyə malikdir, lakin qəzəbləndiyi zaman gözləri o dərəcədə qorxunc olur ki, insanlar bundan dəhşətə düşə, hətta ölə bilərlər. Buna görə də o, bacardığı qədər insanlardan uzaq qalmağa çalışır. Bu məqsədlə özünə beş duyğu orqanımızı simvolizə edən beş saray tikdirir. Bu saraylarda gününü gün edən Vatek sonunda anası Katarisin vasitəsilə yoldan çıxarılır və ruhunu şeytana satır.

Qotik romanın daha bir maraqlı nümunəsi isə Meri Şellinin müəllifi olduğu "Frankenşteyn, yaxud müasir Promotey" hesab olunur.

Bu əsərlərlə yanaşı, sözügedən yarımfəsildə Anna Radklifin "İtalyan", Metyu Levisin "Keşiş", Çarlz Meturinin "Sərgərdan

Melmot" romanları da qotik üslubun nümunələri kimi tədqiqata cəlb olunmuşdur.

II fəslin ikinci paraqrafı ***"Nortenger abbatlığı" romanı və qotik psixologizm problemi"*** adlanır. Bu hissədə Ceyn Ostinin qotik romanlara parodiya kimi yazdığı "Nortenger abbatlığı" romanı qotik üslubun janr xüsusiyyətlərinə görə tədqiqata cəlb olunur.

"Nortenger abbatlığı" romanının qəhrəmanı Ketrin Morland zamanının çoxunu qotik romanlar oxuyaraq keçirir. Bu əsərlərin təsiri ilə o, özünü qotik romanların qəhrəmanı kimi xəyal edir. Tədqiqatçıların fikrincə, roman qotik üslubda yazılmamışdır, əksinə qotik əsərlərə parodiyadır. Elizabet Vidmark qeyd edir ki, Ceyn Ostin "Nortenger abbatlığı" romanında bir çox qotik əsərdən nümunə gətirsə də, öz əsərini bu üsluba ironiya kimi yazmışdır. "*Əlbəttə, bəllidir ki, bu roman qotik romanların parodiyasıdır. Çünki "Nortenger abbatlığı" əsərində qotik romanlara xas olan heç bir həqiqi təhlükə və müəmmadan söhbət gedə bilməz".*[34]

Bu romanı yazmaqda Ceyn Ostinin məqsədi həm Ann Radklifin "Udolfo qəsri" əsəri kimi oxucularda həyəcan yaratmaq, həm də insanların duyğularını yağmalayan, onları qorxu və dəhşətə salan qotik romanları ironiya etmək idi. O bu cür romanlara parodiya edərək yeni növ əsər yaratmaq istəyirdi.

Ceyn Ostin ön romantizm dövründə yaranmağa və populyarlaşmağa başlayan və ağlasığmaz dərəcədə mənasız olan Qotik romanları gülünc və uydurma hesab edirdi. O, xüsusi ironiya ilə yazırdı:

"*Xanım Radklifin əsərləri hər nə qədər gözəl və maraqlı olsa da, İngiltərə cəmiyyətinə məxsus insanın daxili aləmini, xüsusiyyətlərini bu cür əsərlərdə axtarmaq düzgün deyil"*[35].

Bir din xadiminin qızı olan Ketrin Morland 17 yaşındadır və maraqsız bir həyatı var. Lakin bütün bunlara baxmayaraq o oxuduğu romanların təsiri ilə bir gün oradakı qəhrəmanlar kimi rəngarəng həyat yaşayacağını xəyal edir. Əsər cənab və xanım Allenin Ketrini elit təbəqənin yaşadığı Bath şəhərinə aparması ilə başlayır. Bath

[34] Widmark, E. Catherine Morland in Jane Austen's Northanger Abbey: [Electronic resource]. URL: https://gupea.ub.gu.se/bitstream/handle/2077/26145/gupea_2077_26145_1.pdf?sequence=1

[35] Yenə orada, s.10

şəhərində Tilnilər ailəsi ilə tanış olan Ketrin onların oğlu Henri Tilniyə aşiq olur. Lakin burada da müəllif ironiya edərək Ketrinin aşiq olduqdan sonra özünü heç də romanlardakı aşiqlər kimi aparmadığını yazır. Cənab Tilni Ketrini bir neçə həftəliyə Nortenqer abbatlığına dəvət edir. Orta əsrlərdən qalmış, köhnə monastır olan bu qəsr Ann Radklifin romanlarındakı məkanlarla eynilik təşkil edir. Bu səbəbdən də Ketrin uşaqlığından bəri xəyalını qurduğu macəraları yaşayacağı ümidi ilə həyəcanlanmağa başlayır. Orada görəcəyi sirli dəhlizlər, vahiməli otaqlar, onda qorxu yaradacaq dəhşətli sirlər üçün səbirsizlənir.

Lakin Ketrinin qəsri görər görməz kefi pozulur. Çünki qəsr heç də onun xəyallarındakı kimi deyil. Binada çoxdan yenidənqurma işləri olub, Orta əsrlərin dəhşətli qotikliyindən xilas edilib, içərisi də rahat, işıqlı və xüsusi zövqlə bəzədilmişdir.

Yenə də tamamilə ümidini üzməyən Ketrin xəyallarındakı həyəcanı və qorxunu qəsrin otaqlarında axtarmağa başlayır.

Ceyn Ostin addım-addım qotik romanları ələ salmağa və Ketrinlə birlikdə bəlkə də bu romanı qotik roman hesab edərək həyəcanla oxuyan oxucunun da xəyallarını alt-üst etməyə başlayır.

Əgər diqqət etsək, əsərin ironiya ilə yazılmasını elə ilk cümlədən anlamaq olar:

*"Ketrin Morlandı uşaqlığından bəri tanıyan hər kəs onun bir əsər qəhrəmanı kimi dünyaya gəldiyinə inanmazdı. Çünki ətrafındakı hər şey – valideynlərinin və özünün xarakteri, xarici görünüşü və s. onun bir roman qəhrəmanı olmasına mane olan səbəblər idi"* [36].

Yəni, Ketrin demək olar ki, bütün qotik roman qəhrəmanlarında rast gəlinən bir obraz deyildi. Ceyn Ostin bütün qotik romanların protoqonistlərinə qarşı bir anti-qəhrəman yaradaraq onu əsərin baş qəhrəmanı elan etmişdi. Bu həm də roman janrında yeni bir struktur idi. Çünki irəliləyən süjet xəttində anti-qəhrəman bütün missiyasını yerinə yetirdikdən, yəni qotik romanların insanlarda yaratdığı qorxu və dəhşətin əslində gülünc xəyal və fantaziya məhsulu olmasını ifşa etdikdən sonra müəllifin müdaxiləsi ilə yenidən qəhrəmana çevrilir.

---

[36] Austen, J. Northanger Monastrı / J.Austen. – İstanbul: İş Bankası yayınları, – 2012. – s.5

Bu baxımdan Ceyn Ostinin "Nortenger abbatlığı" romanının qəhrəmanı Ketrin Morlandı iki istiqamətdə təhlil etmək olar: Qotik romanların anti-qəhrəmanı kimi və realist romanın əsas qəhrəmanı kimi.

Romanın dərin psixoloji qatları var. Burada müəllifin əsas məqsədi qotik bir roman yazmaqdan daha çox Ketrin obrazının daxili aləmini ətraflı təhlil etmək və psixoloji inkişafını oxucunun gözləri önünə sərməkdir. Yəni, romandakı qotik üslub daha çox bir vasitədir.

Mark Laverik əsər haqqında essesində Ceynin bu yolla roman janrına yeni anlayışlar gətirdiyini qeyd edir[37].

Dissertasiya işinin III fəsli **"Ceyn Ostinin realist əsərlərində psixologizm"** adlanır. Bu fəslin ***"Qürur və qərəz" romanında psixologizm"*** adlı birinci paraqrafda adıçəkilən romanın janr xüsusiyyətləri, eləcə də obrazların psixoloji vəziyyətlərinin təhlili, realist psixologizm aspektindən tədqiqata cəlb olunur.

Bildiyimiz kimi, Ceyn Ostin daha çox realist əsərlər müəllifi kimi tanınır. Hətta o İngilis ədəbiyyatında bu səpkidə yazılmış əsərlərin ilk böyük ustası hesab olunur. O öz əsərlərində Regentlik və Viktoriya dövründə yaşayan qadınların gündəlik həyatının, hiss və həyəcanlarının, mübarizələrinin ən xırda detalına qədər ətraflı təsvirini verir. Digər romanlarında olduğu kimi burada da XVIII və XIX əsrlərdə qadınların mövcud problemləri, müasir dövrümüzdə belə öz aktuallığını qoruyub saxlayan gender bərabərliyi məsələləri öz əksini tapmışdır.

Roman avamlığı ilə gülüş obyektinə çevrilən Xanım Bennet və onu lağa qoymaqdan çəkinməyən əri cənab Bennetin ailəsində baş verən hadisələrdən və onların beş gənc qızının həyatından bəhs edir.

Bu əsəri yazmaqda Ceyn Ostinin əsas məqsədi qadınların rahat şərtlərdə yaşamaq və həyatına davam etməsi üçün zəngin bir həyat yoldaşına ehtiyacı olduğunu oxucuların diqqətinə çatdırmaqdan ibarətdir. Qadınların evlənməkdən başqa çıxış yolu yox idi, əks halda bütün həyatlarını səfillik içərisində və kimdənsə asılı vəziyyətdə yaşamağa məcbur idilər.

---

[37] Widmark, E. Catherine Morland in Jane Austen's Northanger Abbey: [Electronic resource]. URL: https://gupea.ub.gu.se/bitstream/handle/2077/26145/gupea_2077_26145_1.pdf?sequence=1

Oxucu roman boyunca xanım Bennet, Lidiya, Meri kimi qeyri-rasional davranışlar sərgiləyən, intellektual cəhətdən dayaz, daha çox gündəlik məişət qayğıları və bayağı eşq söhbətləri ilə maraqlanan qadın qəhrəmanlarla yanaşı, rasional cəhətləri üstünlük təşkil edən Elizabet, Ceyn, Şarlotta kimi obrazların müqayisəsini görür.

Romanın əsas qadın qəhrəmanı Elizabet bütün qızlar içində ən intellektual və rasional düşünən biridir. Eləcə də o, Ostinin qadınlarda qüsur olaraq gördüyü bir çox xüsusiyyətdən uzaq obrazdır. Buna görə də atası tərəfindən daim təqdir görür. O, insanları müşahidə etməyi və bu barədə analizlər aparmağı sevir. Başqalarının yox, öz qənaətləri və fikirləri əsasında qərar verməyə üstünlük verir. Gözüqara şəkildə cəmiyyətin tələb etdiyi qanunlar yerinə, öz ağlı ilə hərəkət edir, mövcud adət-ənənəyə qarşı baş qaldırır. Elit təbəqənin qayda-qanunlarını heçə sayır, zaman-zaman "ağıllı və itaətkar qadın"ların davranmalı olduğu qaydaları pozaraq, özü istədiyi kimi hərəkət edir. *"Lizzi bacılarına baxanda bir az da fərasətlidir, ağıllıdır"*[38].

Elizabet Bennet və cənab Darsi arasında ilk qarşılaşmalarından sonra bir qərəz yaranır. Təsadüfi deyildir ki, əsərin adı da məhz bu iki obrazın xarakterindəki əsas cəhətlərlə bağlıdır. Elizabet həddən artıq qərəzli biridir. Cənab Darsi isə elit təbəqənin üzvü kimi böyüdüyünə görə daim qürurludur. Beləliklə, romanın adı Cənab Darsinin qüruru və Elizabet Bennetin qərəzinə görə "Qürur və qərəz" adlandırılmışdır.

Ceyn Ostin bilərək Elizabet obrazının gözəlliyini çox da vurğulamır. Müəllifə görə bir qadında gözəllikdən də əhəmiyyətli olan onun davranış və düşüncələridir.

Əsərin süjet xətti irəlilədikcə Elizabet və Darsi arasındakı qərəzli münasibət dəyişməyə, nisbətən yumşalmağa başlayır. Elizabetin Darsiyə olan sevgisi ona qarşı qərəzinin yoxa çıxması ilə aydınlaşır, Darsinin qüruru isə Elizabetə olan sevgisinə məğlub olur[39].

---

[38] Ostin, C. Qürur və qərəz. / C.Ostin. – Parlaq İmzalar nəşriyyatı, – 2021. – s.13

[39] Pollak, Ellen. The Proper Lady and the Woman Writer: Ideology as Style in the Works of Mary Wollstonecraft, Mary Shelley, and Jane Austen. / Ellen Pollak. – Eighteenth Century Studies [1987-8]: 2009. – p.261

Burada Ceyn Ostinin psixologizmi Darsinin məhəbbətini ağlın və məntiqin üstündə tutaraq, ondan ehtirasla bəhs etməsində özünü göstərir. Belə ki, Darsinin Elizabetə gedən yolu bir çox daxili çəkişmələrdən, insanın öz-özü ilə mübarizəsindən keçir. O, Lizaya olan məhəbbətini özünə və sevdiyi qadına etiraf edənə qədər kibir, təkəbbür, qürur, rasional düşüncə kimi bir çox əngəlləri aşmalı olur. Bunun özü birbaşa psixologizmin nümunəsidir. Ceyn Ostin bir psixoloq peşəkarlığı ilə Darsini müxtəlif sınaqlardan keçirərək, özünü tərbiyə etməyə və daxilindəki əsas hissləri, başqa sözlə desək "əsl Darsini" ortaya çıxarmağa müvəffəq olur.

Muriel Meyzfild, qeyd edir ki, "Qürur və qərəz" romanının spesifikliyi ondadır ki, burada Ceyn Ostin romantika ilə satiranı vəhdətdə saxlayaraq, ecazkar bir qadın obrazını digər bütün obrazlardan yüksəyə qaldırır.[40]

Digər yandan Josef Kestner, ikinci dərəcəli obrazların da ən az əsas qəhrəman qədər tamamlanmış və peşəkarlıqla yaradılmasını müəllifin püxtələşmiş istedadı ilə əlaqələndirir [41].

İkinci paraqraf ***"Hiss və hissiyyat" romanında psixologizm"*** adlanır. Burada qadınların nöqteyi-nəzərindən sosial təbəqə bölgüsü, məhəbbət, evlilik və maddi vəziyyət kimi məsələləri və bu məsələlərin qadınlar üzərindəki təsirini araşdırılır. Mövzu və struktur baxımından əsər "Qürur və qərəz" romanı ilə bənzərlik təşkil edir.

Bu baxımdan demək olar ki, Ceyn Ostinin romanları ayrı-ayrılıqda müstəqil əsərlər yox, bir-birinin davamı kimi yazılmış vahid bir romanın hissələridir.

"Hiss və hissiyyat" romanı 1795-ci ildə "Elinor və Marianna" adı ilə yazıb tamamlasa da, 1811-ci ilə qədər çap etdirməmişdir. Onu da qeyd etmək lazımdır ki, əsər ilk olaraq epistolyar janrda, yəni məktublar formasında yazılsa da, müəllif sonradan onu dəyişərək roman halına salmışdır[42].

---

[40] Masefield, M. Women Novelists from Fanny Burney to George Eliot. / M.Masefield. – London, Y.N. & Watson, – 1967. – p. 45

[41] Kestner, J. The Spatiality of the Novel /J.Kestner. – Wayne State University Press, – 1979. – p.3

[42] Urgan, M. İngiliz edebiyatı tarihi. / M.Urgan. – Yapı Kredi Yayınları, – 2003. – s.891

Əsərin mərkəzində iki əks qütbü təmsil edən bacıların – Elinor və Mariannanın münasibəti və sevgi macərası dayanır. Bu obrazları Ceyn Ostin və bacısı Kassandra Ostinin prototipləri hesab etmək olar.

Marianna Daşvudun əsas xüsusiyyəti həddindən artıq emosional olmasıdır. Onun duyğusallığı və emosionallığı bayağı deyil, əksinə çox səmimidir. Marianna "Nortenger abbatlığı" əsərinin baş qəhrəmanı Ketrin kimi tamamilə uydurma, romantik xəyallara qapılmır, gülünc vəziyyətlərə düşmür. Ceynin Mariannaya münasibəti Ketrinə olduğu kimi istehsalı və sarkazmla deyil. Əksinə, o, Mariannanın müsbət cəhətlərini, eləcə də ağıllı bir qız olduğunu vurğulayır. Onun yeganə mənfi cəhəti hisslərinin ölçülü olmamasıdır.

Mariannada çatışmayan tədbir və ehtiyatlılıq onun böyük bacısı Elinorda var. Ancaq Mariannaın xarakteri yalnız saf duyğudan ibarət olmadığı kimi, Elinorun da xarakteri saf məntiqdən ibarət deyil. Həmişə istədiyi kimi davranmaq və fikrini açıqca söyləmək istəyən Mariannadan fərqli olaraq, Elinor cəmiyyətin qəbul etdiyi adət və ənənələrə hörmətlə yanaşır. Bacısının da eynilə onun kimi davranmasını istəyir. Göründüyü kimi, Ceyn Ostinin nəzərində Elinor bacısından üstün, ən kiçik qüsuru belə olmayan, mükəmməl xarakterə malik gənc qızdır.

"Qürur və qərəz" romanının qəhrəmanları Elizabet və Ceyndən fərqli olaraq, Elinor və Marianna iki fərqli münasibəti təcəssüm etdirir: böyük bacı Elinor ağlı, məntiqi, Marianna isə həssaslığı, emosiyaları. Elinor atasına bənzəyib, onun qədər təmkinli, soyuqqanlı davranan, hisslərini cilovlayan biridir. Təsadüfi deyil ki, atası öləndən sonra bu vəzifə Elinorun çiyinlərinə düşür. Və o ailənin başçısı kimi onları idarə etməyə başlayır.[43]

Hər iki bacı eyni problemlə, yəni sevgi itkisi ilə mübarizə aparır. Onların hər biri problemin öhdəsindən fərqli şəkildə gəlir, lakin oxşar təcrübə onlara münasibətlərindəki fərqləri aradan qaldırmağa kömək edir və sonda bir-birlərinə dəstək olurlar. Marianna Elinora qulaq asanda bacısı hisslərini gizlətməyə çalışsa belə, onu anlayır. Elinor isə ağlından istifadə edərək bacısını qoruyur.

---

[43] Ostin, C. Düşüncə və hissiyyat. / C.Ostin. – Qanun nəşriyyatı, – 2017. – s.6

Syuzan Morqan özünün "Nəzakətli Yalanlar" ("Polite Lies") məqaləsində yazır*: "Əsər iki bacının səciyyələndirdiyi ağıl və emosiya arasında klassik bir qarşıdurmanı təqdim edir"*[44]. Başqa sözlə, bu, romanın adından da göründüyü kimi, Mariannanın təmsil etdiyi həssaslığın hiss üzərində qələbəsidir:

Merilin Batler "Ceyn Ostin və ideyalar savaşı" ("Jane Austen and the War of Ideas") adlı kitabında Ceynin əsərin əsas qəhrəmanı olaraq iki qadın seçməsini bu cür açıqlayır: *"Kontrast formasını seçən bütün yazıçılar bunu ideoloji bir fikri açıqca söyləmək üçün seçirlər"*[45].

Batlerin fikrinə görə, Ostin bu baxımdan mühafizəkar yazıçıdır, o, duyğu və hissləri gözardı edir, əksinə isə sağlam düşüncəni, ağlı və məntiqi dəstəkləyir. Batler bunu belə izah edir ki, Ostin atası tərəfindən inanclı bir xristian kimi yetişdirilmişdi. Onun üçün xristianlıq ənənələri, dəyərləri və sosial etikası olduqca əhəmiyyətli idi. Düzgün tərbiyə edilmiş hər bir xristian ağlını hisslərindən üstün tutmalı, ictimai dəyərlərə sadiq qalmalı idi. Ceyn məhz buna görə iki əsas protoqonist seçir. Yazıçı Elinora qarşı Marianna obrazını qoyaraq əslində, iki dəyər sistemini təhlil edir, onlar arasındakı mübarizəni göstərməyə çalışır.[46]

"Hiss və hissiyyat" əsərində müəllif vurğulayır ki, ailənin ahəngdarlığı üçün məntiq və emosionallıq vəhdətdə olmalıdır. Onlardan biri olmadıqda, ailədə birlik olmur və dağılır.

Qadınların maddi asılılığı mövzusu "Qürur və qərəz" romanındakı qədər dərindən işlənməsə də, bu romanda da dövrün mövcud mənzərəsini görə bilirik. Məsələn, xanım Daşvud Kolonel Brandonun Mariannayla evlənmək istədiyini öyrənəndə həddindən artıq sevinir və qızına qərar verərkən onun nə qədər varlı olduğunu da düşünməyini tövsiyə edir.

Buna görə də Mariannanın Vilbini unudub, Brandonla evlənməsini yetkinləşmənin ağrılı bir prosesi, yeniyetməliklə bağlı

---

[44] Morgan, S. In the Meantime: Character and Perception in Jane austen's Fiction / S.Morgan. – University of Chicago Press, – 1980. – p.25

[45] Butler, Marilyn. Jane Austen and the War of Ideas. / M.Butler. – Oxford: OUP, – 2001. –p.184

[46] Yenə orada, – s.184

emosiya və təhlükəli ehtiraslardan qurtularaq həyatın gerçəklərini, eləcə də vəzifə və məsuliyyətlərini dərk etməsi kimi qiymətləndirə bilərik. Marianna artıq keçmişin ağrılı dərslərindən nəticə çıxarmış ağlı başında yetkin bir qadındır. O, anlayır ki, normal və daha uzunmüddətli xoşbəxtlik üçün sevgidən də vacib dürüst, əxlaqlı və normal gəlirli birinə ehtiyacı var. Bu xüsusiyyətlərin hamısı isə polkovnik Brandonda cəmlənib.

Tənqidçi Marvin Mudrak, bu sonluğa görə Ceyn Ostini günahlandırır. Ona görə Ceyn burada Mariannanı məntiq əsasında Brandonla evləndirərək onu cəmiyyətin basqısı ilə qəbul edilmiş ənənələrə məhkum edir. Bu isə Marianna kimi səmimi və duyğusal birinə haqsızlıqdır[47].

"Hiss və hissiyyat" əsəri zahirən bir-birinə qarşı qoyulmuş iki bacının sevgi hekayəsindən bəhs etsə də, əsərin dərin psixoloji qatları var. Marianna və Elanor ayrı-ayrılıqda bir insani keyfiyyəti – hissləri və ağlı təmsil edən iki obrazdır. Lakin onlar həm də bir-biri ilə oxşar cəhətlərə də malikdirlər, yəni tamamilə zidd obrazlar deyillər. Marianna və Elanoru hər bir insanın daxilində mövcud olan dualizmlə, daxili çarpışma ilə əlaqələndirmək olar. Əslində, hər bir insan psixologiyası bu cür ikili mübarizədən əziyyət çəkir. Ağıl və hisslərimiz daim bir-biri ilə mübarizədədir, biri digərinə üstün gəlmək istəyir[48].Ağıl insanı öz tərəfinə, hisslər isə öz tərəfinə çəkmək istəyir. Hər ikisi öz doğrularını müdafiə edir. Tamamilə duyğusal, emosional və ya tamamilə rasional, ağlı ilə hərəkət edən insan olmadığı kimi bu iki bacı obrazı da zaman-zaman təmsil etdikləri cəbhəni tərk edib, qarşı tərəfin dəstəyinə ehtiyac duyurlar. İnsan da belədir. O, nə qədər realist və rasional olsa da hisslərin də köməyinə ehtiyac duyur. Eləcə də duyğusal və emosional insanlara da praktiki ağıl və rasionalizm mütləq lazımdır. Demək, insan daxilində də bu iki cəhət vəhdətdə olmalıdır. Biri digərini üstələməməli, bərabər şəkildə olmalıdır. Roman da sonda belə bitir.

[47] Mudrick, M. Irony as Defense and Discovery. / M.Mudrick. – University of California Press, – 1952. – p.21
[48] Yenə orada, – s.22

Ceyn Ostinin insan psixologiyasının bu cür dərin qatlarını, daxili çarpışmanı sadə bir eşq romanı vasitəsilə açması doğrudan da, yüksək qiymətləndirilməlidir.

Tədqiqatın yekunları "**Nəticə**" də ümumiləşdirilmişdir:

1. İnsan və psixologiya daim sıx əlaqədə olduğu kimi, ədəbiyyat və psixologizm də hər zaman vəhdətdə olmuşdur.

2. Psixologizm, istənilən əsərdə psixologiyanın önəmini vurğulayır və obrazların daxili aləminin açılmasında zəruri əhəmiyyətə malikdir. Buna görə də hər bir əsərin təhlili zamanı tədqiqatçı mütləq psixoloji biliklərə sahib olmalı, obrazların daxili aləmini açarkən və onları analiz edərkən həm də bu istiqamətdən araşdırmasına davam etməlidir.

3. Ziqmund Freyd və Karl Yunqun psixoanalizlə bağlı araşdırmalarının psixologizmin inkişaf edərək daha çox sahəyə nüfuz etməsinə böyük təsiri olmuşdur.

4. Psixologizmin ən yaxşı nümunələri roman janrında özünü göstərir. Çünki roman janrının imkanları psixologizmin işlənməsi baxımından əlverişlidir. Bu səbəbdən dünya ədəbiyyatında kifayət qədər yazıçı roman yaradarkən psixologizmə müraciət etmişdir.

5. İngilis ədəbiyyatının görkəmli yazıçılarından biri olan Ceyn Ostin əsərlərində yer verdiyi psixoloji təsvirlərlə ingilis romanına yeni bir çəki qazandırmış, onu tamamilə ayrı bir səviyyəyə qaldırmışdır.

6. Ceyn Ostin kifayət qədər mürəkkəb, tarixi, iqtisadi və sosial cəhətdən rəngarəng bir dövrdə yaşasa da, onun mövzu dairəsi hər zaman əyalət insanlarının gündəlik yaşam tərzi və onların daxili aləmlərinin bədii və psixoloji təsviri ilə olmuşdur. Fransız inqilabı, Sənaye inqilabı, Napoleon müharibələri kimi tarixi hadisələrdənsə, daha çox qəhrəmanlarının psixoloji aləmlərinin, ruh hallarının açılmasına önəm verən Ceyn Ostin bəlkə də buna görə İngilis ədəbiyyatının ilk psixoloq-yazıçısı hesab olunur.

7. Ceyn Ostinin romanlarında geniş işlənmiş ikinci bir mövzu isə Regentlik dövrü üçün olduqca xarakterik olan qadınların evlilik məsələsi və onların cəmiyyətdəki yeri idi. Məlumdur, bu dövrdə qadınların sosial və iqtisadi durumu olduqca mürəkkəb idi. Onlar kişilər qədər geniş imkanlara və hüquqlara sahib deyildilər. Həyatları

atalarından, ailə qurduqdan sonra isə ərlərindən asılı idi. Buna görə də ər seçərkən mütləq özlərini maddi baxımdan qarantiya altına almağa məcbur idilər. Belə olduğu halda hisslər və digər kriteriyalara görə seçim etmək ikinci plana keçirdi.

8. Ceyn Ostin XVIII əsrin sonu XIX əsrin əvvəllərində yaşamışdır. Bu dövrdə klassisizm bitmiş, əvəzinə isə romantizm gəlmişdi. Amma Ceyn yaşadığı dövrün tələblərinin əksinə gedərək romantik səpkidə əsərlər yazmamışdır. Onun yaradıcılığı daha çox klassisizmə və realizmə yaxın idi.

9. Ceyn Ostinin əsərlərində İngiltərə barədə yaxşı və ya pis heç bir fikrə rast gəlmək mümkün deyil. Demək olar ki, altı romanının heç birində bu barədə geniş təhlil və məlumata yer verməyib.

10. Ceyn Ostin evliliyə, sosial həyatın vacib bir şərti kimi baxırdı və romanlarında da evlilik məsələsini bu şəkildə qələmə almışdır. Bunu "Emma", "Qürur və qərəz", "Hiss və hissiyyat", eləcə də yazıçının digər əsərlərində görmək mümkündür.

11. Ceyn Ostinin demək olar ki, bütün romanları müəyyən çətinlikdən sonra həqiqi sevgini tapan qadınlar haqqındadır. Sözsüz ki, XIX əsrdə yalnız qadınlar haqqında bu cür cəsur fikirlər yürütmək, onların duyğu və düşüncələri barədə roman yazmaq feminist düşüncənin göstəricisi idi. Onun qadın qəhrəmanlarının çoxu azadlığı sevən, öz seçimlərini özü edən və onun müdafiəsinə qalxan qadınlardır.

12. Yazıçının "Nortenger abbatlığı" romanı mövzu və işlənmə tərzinə görə digər, romanlarından fərqlənir. Bu əsər XVIII əsrin, Maarifçilik dövrünün, eləcə də erkən Regentlik dövrünün ciddi sosial və ailə konvensiyalarını əks etdirən romanların burleski kimi qiymətləndirilir.

13. Ceyn Ostinin digər beş romanı realist romanlardır. "Qürur və qərəz", "Hiss və hissiyyat", "Emma", "Mansfild parkı", və "Təhrik" romanlarında psixologizm digərlərinə nisbətdə daha güclüdür. Yazıçı yaratdığı nümunələrdə psixologizmin müxtəlif vasitə və formalarından istifadə edərək obrazların daxili aləmini, qəhrəmanların ruhi vəziyyətlərini peşəkar bir psixoloq kimi açmağa müvəffəq olmuş, onların davranış şəkillərini psixoloji detallarla əlaqələndirməyi bacarmışdır.

14. “Qürur və qərəz” romanında Ceyn Ostinin psixologizmini Darsinin məhəbbəti ağıldan üstün tutmasında, ondan ehtirasla bəhs etməsində görürük. Darsinin öz qürurundan vaz keçərək Lizaya olan məhəbbətini etiraf etməsinə qədərki yolu olduqca mürəkkəb çəkişmələrdən keçir. Eyni zamanda Liza da dərin psixoloji sınaqlardan keçərək qərəzli münasibətini aşa bilir. Bunun özü birbaşa psixologizmin nümunəsidir.

15. Digər romanı “Hiss və hissiyyat” əsərində müəllif sevgi və məntiq evliliyi arasındakı dilemma ilə yanaşı həmçinin, əsas qadın qəhrəmanlar Elinor və Mariannanın münasibətləri vasitəsilə təsvir olunan iki fərqli sevgi anlayışından bəhs edir.

16. Əsər bir-biri ilə ziddiyyət təşkil edən iki bacının sevgi hekayəsindən bəhs etsə də, dərin psixoloji qatları var. Marianna və Elinor hissləri və ağlı təmsil edən iki obrazdır. Onlar öz təbiətlərinə sadiq qalaraq hər biri öz aid olduğu tərəfi müdafiə edirlər. Bu situasiya oxucunu polemikaya səsləyir. Lakin onlar həm də bir-biri ilə bənzər cəhətlərə malikdirlər, yəni tamamilə bir-birinə zidd obrazlar deyillər. Bu cür yanaşdıqda Marianna və Elanoru hər bir insanın daxilində mövcud olan dualizmlə, daxili çarpışma ilə əlaqələndirmək mümkündür. Ağıl və hisslər daim bir-biri ilə çəkişmədədir, biri digərinə üstün gəlmək istəyir. Tamamilə emosional və ya tamamilə rasional insan olmadığı kimi bu iki obraz da zaman-zaman təmsil etdikləri cəbhəni tərk edib, qarşı tərəfin dəstəyinə ehtiyac duyurlar. İnsan belədir. O, nə qədər realist və rasional olsa da, zaman-zaman hisslərin də köməyinə ehtiyac duyur. Eləcə də emosional insanlar da ağıl və məntiq olmadan çətinlik çəkə bilərlər. Ceyn Ostin bu psixoloji ziddiyyəti iki obraz vasitəsilə ustalıqla təhlil edir.

17. Əsərlərinin mövzusu, problematikası Ceyn Ostin yaradıcılığının hər zaman aktuallığını qorumasına səbəb olmuşdur. O, yaratdığı əsərlər, obrazlar vasitəsilə zamanının sərhədlərini aşa bilmişdir, bu səbəbdən də müasir dövrdə belə yeni müəlliflərlə eyni sırada dayana bilir.

18. Bu baxımdan Ceyn Ostinin həyat və yaradıcılığının araşdırılması və tədqiqi istər dünya ədəbiyyatı, istərsə də, Azərbaycan ədəbiyyatşünaslığı üçün olduqca əhəmiyyət kəsb edir.

***Dissertasiyanın əsas məzmunu və elmi müddəaları müəllifin aşağıdakı məqalə və tezislərində əksini tapmışdır:***

1. Seyidzadə, C.M. XIX əsr ingilis ədəbiyyatında qotik istiqamət // – Bakı: Bakı Dövlət Universiteti, Dil və ədəbiyyat. Beynəlxalq elmi-nəzəri jurnal, – 2018. № 4(108), – s.244-246.
2. Seyidzadə, C.M. Qotik roman janrının yaranması və inkişafı // Azərbaycan Xalqının Ümummilli lideri Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr olunmuş Filologiyanın Aktual Problemləri mövzusunda Respublika elmi-nəzəri konfransının Materialları. – Bakı: Bakı Dövlət Universiteti, – 16-17 may, – 2018, – s.58-61.
3. Seyidzadə, C.M. Ədəbiyyatda psixologizm probleminin tarixi // – Bakı: Bakı Dövlət Universiteti, Dil və ədəbiyyat. Beynəlxalq elmi-nəzəri jurnal, – 2019. № 1(109), – s.286-288.
4. Сеидзаде, Дж. Становление жанра готического романа в мировой литературе // Актуальные вопросы современной науки: материалы III международной научно-практической конференции/ – Калининград: Издательство ЦПМ «Академия Бизнеса», – 16 января, – 2020, – с.209-212.
5. Сеидзаде, Дж. Ранняя Готика в Творчестве Джейн Остин и роман “Аббатство Нортенгер” // – Киев: Ученые записки ТНУ имени В.И.Вернадского, Серия: Филология. Социальные коммуникации, – 2020. Том 31 (70), № 4, – с.165-170.
6. Сеидзаде, Дж. Понятие психологизма как объект исследования в литературе // Новый Мир. Новый Язык. Новое Мышление: сборник материалов IV ежегодной международной научно-практической конференции. – Москва: Дипломатическая академия МИД России, – 6 февраля, – 2021, – с.667-671.
7. Сеидзаде, Дж. Вопросы феминизма в романах Джейн Остин // – Махачкала: Вестник Дагестанского государственного университета. Серия 2: Гуманитарные науки, – 2021. Том 36, № 4, – с.56-62.
8. Yaqubova, C.M. Ceyn Ostinin romanlarında qadın və evlilik anlayışı // – Bakı: Elm və təhsil, AMEA, M.Füzuli adına

Əlyazmalar İnstitutu, Filologiya məsələləri, – 2022. № 15, – s.356-363.
9. Yaqubova, C.M. Ceyn Ostin və feminizm // Qloballaşma dövründə Türk dünyası: çağırışlar, perspektivlər. Beynəlxalq tələbə elmi konfransının materialları. – Bakı: Xəzər Universiteti nəşriyyatı, – 26-27 may, – 2022, – s.39-44.
10. Yaqubova, C.M. Ceyn Ostinin "Qürur və Qərəz" romanında qadın qəhrəmanların psixoloji təsviri // – Bakı: Elm və təhsil, AMEA, M.Füzuli adına Əlyazmalar İnstitutu, Filologiya məsələləri, – 2023. № 1, – s.356-363.

Dissertasiyanın müdafiəsi 19 iyun 2025-ci il tarixində saat 14.00 Azərbaycan Dillər Universiteti nəzdində fəaliyyət göstərən ED 2.12 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ1014, Bakı şəhəri, Rəşid Behbudov küçəsi, 134.

Dissertasiya ilə Azərbaycan Dillər Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Azərbaycan Dillər Universitetinin rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 19 may 2025-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 15.05.2025

Kağızın formatı: 60x84 1/16

Həcm: 41111 işarə

Tiraj: 100 nüsxə